9 noyabr - Azərbaycan Respublikasının Dövlət bayrağı günüdür

№ 46 (988) 09-15 noyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# 2 000 000 000 TON AZƏRBAYCAN NEFTİ

## Azərbaycanda iki milyard ton neft hasilatı münasibətilə təntənəli mərasim keçirildi



Noyabrın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı mərasimdə nitq söyləmişdir.

Sonra SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "28 May" Neft-Qaz Çıxarma İdarəsinin 10 saylı özülünün rəisi Qədim Əliyev, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, Bakı Ali Neft Məktəbinin birinci kurs tələbəsi Mahirə Əsədova, SOCAR-ın vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış ediblər.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Xoşbəxt Yusifzadə birinci dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.

Dövlətimizin başçısı ordeni Xoşbəxt Yusifzadəyə təqdim etmişdir.

Sonda Azərbaycanın neft sənayesinin tarixinə həsr edilən videoçarx nümayiş olunmuşdur.



# Bakı Metropoliteni - 50



Noyabrın 6-da metronun "İçərişəhər" stansiyasında Bakı Metropoliteninin 50 illik yubileyi ilə əlaqədar metropolitendə istismar edilmiş retro vaqonların bərpadan sonra təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev retro vaqonlarla tanış olub.

Xatırladaq ki, 1967-ci il noyabrın 6-da Bakı Metropoliteninin "İçərişəhər" stansiyasından ilk qatar uzunluğu 10 kilometrdən bir qədər az olan xətt üzrə hərəkətə başlayıb. "Sahil", "28 May", "Gənclik" və "Nəriman Nərimanov" stansiyaları həmin xəttin üzərində yerləşirdi. Ulu öndər Heydər Əliyevin istər Sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dövrlərdə iqtisadiyyatın digər sahələrində olduğu kimi, metro da sürətli inkişaf yolu keçib, istismara buraxılan stansiyaların sayı 14-ə, xətlərin ümumi uzunluğu isə 22 kilometrə çatdırılıb.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına retro vaqonlar barədə məlumat vermişdir.

Qeyd edək ki, Mıtişşi maşınqayırma zavodunda istehsal olunan ilk belə retro vaqonlar "A" tipli vaqonlar adlandırılırdı. Bu vaqonlar 1934-cü ilin sonunda hazırlanıb. Həmin vaqonlarda oturmaq üçün 52 və ayaq üstə dayanmaq üçün isə 120 yer var idi. Bu tipli vaqonlardan biri 1968-ci ildə yol ölçmək üçün Bakıya göndərilib.

Retro tipli digər vaqonlar "Q" tipli vaqonlar idi. Yeni mühərrikli vaqonlar Qorki xətti üçün nəzərdə tutulduğuna görə "Q" tipli adlandırılırdı. Bu vaqonların istismar müddəti 1983-cü ildə başa çatıb.

Təqdimatı olan "E" tipli digər vaqonların hazırlanmasına isə 1956-cı ildə başlanılıb. "E" tipli ilk sınaq vaqonu 1959-cu ilin sonlarında istehsal olunub. Bu tipli vaqonlar Sovet İttifaqı dövründə beş şəhərin - Moskva, Leninqrad, Kiyev, Bakı və Tbilisinin metropolitenlərinə göndərilirdi. Bakıya "E" tipli 47 ədəd vaqon çatdırılmışdı.

Sonra Prezident İlham Əliyev retro vaqonlardan ibarət qatarla "İçərişəhər" stansiyasından "Nəriman Nərimanov" stansiyasına gəlmişdir.

Qeyd edək ki, 2003-cü ildə Bakı Metropoliteni yeni inkişaf mərhələsinə qədəm qoyub. 50 illik yubileyi qeyd edilən Bakı Metropoliteninin hazırda 25 stansiyası, 1 elektrik deposu və 36,6 kilometr uzunluğunda 3 xətti var. "Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi"nə əsasən, gələcəkdə metropolitenin ümumi şəbəkəsi 3 mövcud - Yaşıl, Qırmızı və Bənövşəyi, həmçinin 2 əlavə yeni xətt - Mavi və Sarı xətlər olmaqla 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 kilometr metro xəttindən ibarət olacaq. Perspektivdə 51 yeni stansiyanın inşa edilməsi və 84,3 kilometr uzunluğunda metro xəttinin çəkilməsi nəzərdə tutulub.

Retro vaqonlarla tanış olan Prezident İlham Əliyev 50 illik yubileyi münasibətilə Bakı Metropoliteninin kollektivini təbrik etmiş, yeni-yeni uğurlar arzulamışdır.

PAŞA Bank

9 noyabr - Azərbaycan Respublikasının Dövlət bayrağı günü münasibətilə xalqımızı təbrik edirik!

# İran, Rusiya, Azərbaycan üçtərəfli əməkdaşlığı regionda təhlükəsizliyin, sabitliyin, iqtisadi inkişafın təmin olunmasına xidmət edir



***"Ölkələrimizin coğrafi vəziyyəti əməkdaşlığımızın önəmli amilidir".*** Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Tehranda keçirilən üçtərəfli Zirvə görüşündə çıxışında demişdir.

Noyabrın 1-də Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.

İran, Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir:

**- Bugünkü Zirvə görüşünün böyük əhəmiyyəti var. Bu görüş keçən il yaradılmış üçtərəfli, yüksək səviyyəli əməkdaşlıq formatının möhkəmləndirilməsi işində mühüm addımdır.**

Azərbaycan dünyada yeganə ölkədir ki, onun həm İran, həm də Rusiya ilə sərhədləri var. Ölkələrimizin coğrafi vəziyyəti əməkdaşlığımızın önəmli amilidir. Xalqlarımızın tarixi əlaqələri isə üç ölkə arasında tərəfdaşlığın möhkəm təməlini təşkil edir.

Azərbaycan İran və Rusiya ilə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq həyata keçirir. İranla İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO), Rusiya ilə MDB, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində birgə fəaliyyətimizi qeyd etmək istərdim. Biz BMT çərçivəsində də fəal əməkdaşlıq edirik. Bu gün dünyada beynəlxalq hüququn normalarının bərqərar olması gündəlikdə duran ən önəmli məsələlərdən biridir. Əfsuslar olsun ki, bir çox hallarda bu normalar işləmir və kobudcasına pozulur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi buna əyani misaldır. Ermənistan Azərbaycanın əzəli torpağı, ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və ətraf 7 rayonu 20 ildən çoxdur ki, işğal altında saxlayır.

Qeyd etmək lazımdır ki, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bu münaqişə ilə bağlı müvafiq qərar və qətnamələr qəbul olunmuşdur. Bunların sırasında dünyanın aparıcı qurumu olan BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrini, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatların qəbul etdiyi oxşar qərar və qətnamələri göstərmək olar. Ancaq Ermənistan buna məhəl qoymur, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir, işğalçı siyasətini davam etdirir. Erməni işğalına tezliklə son qoyulmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri dərhal icra edilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul edilmiş qətnamələr isə 20 ildən çoxdur ki, kağız üzərində qalır. Bu, ikili standartların göstəricisidir. Bugünkü status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir.

Üçtərəfli format iqtisadi əməkdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması üçün yaxşı imkan yaratmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya və İran ilə ticarət dövriyyəsi 2017-ci ilin yanvar-sentyabr aylarında 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. Gələcəkdə biz bu müsbət dinamikanı saxlamalı və artırmalıyıq. İrandan və Rusiyadan Azərbaycan iqtisadiyyatına qoyulan sərmayənin həcmi artır. Keçənilki Zirvə görüşündən sonra İran şirkətləri Azərbaycanda avtomobil və dərman preparatları zavodlarının tikintisinə iri həcmdə sərmayələr qoymuşdur. Rusiya şirkəti isə daha bir dərman preparatları zavodunun tikintisinə böyük sərmayə yatırır. Azərbaycan da öz növbəsində hər iki ölkəyə sərmayə qoyuluşunu artırır. Bu sərmayə layihələri qarşılıqlı dostluğun və inamın təzahürüdür. Üç ölkə arasında əlaqələrin uğurlu inkişafının nəticəsi olaraq biznes dairələri də daha inamla sərmayə qoymağa başlamışlar. Ümid edirəm ki, bugünkü Zirvə görüşü də ölkələrimizin biznes dairələrinin daha da ruhlandırılmasına və qarşılıqlı sərmayə qoyuluşunun artırılmasına xidmət edəcək.

Ölkələrimiz neft-qaz sahəsində də uğurlu əməkdaşlıq həyata keçirirlər. İran və Rusiya şirkətləri 20 ildən artıqdır ki, Xəzərin Azərbaycan sektorunda neft-qaz yataqlarının işlənilməsində iştirak edirlər.

Elektroenergetika sahəsində əməkdaşlıq inkişaf edir. Azərbaycan həm İran, həm də Rusiya ilə öz enerji xətlərini birləşdirib. Azərbaycanın və Rusiyanın enerji sistemləri paralel iş rejimində fəaliyyət göstərir. İki ölkənin enerji sistemlərini **"Xaçmaz-Dərbənd" və "Yalama" elektrik verilişi xətləri birləşdirir. İran-Azərbaycan enerji sistemlərini isə "İmişli-Parsabad" elektrik xətləri birləşdirmişdir. Araz çayında Ordubad və Marazad Su Elektrik stansiyalarının tikintisi haqqında imzalanmış saziş qüvvəyə minmiş və icra edilir. Ordubad Su Elektrik Stansiyasının tikintisi uğurla gedir.**

Bu il üç ölkə arasında dəmir yollarında daşınma tarifləri razılaşdırılmışdır. Beləliklə, Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilmişdir. Bu yol Şimal-Cənub nəqliyyat dəhlizinin önəmli hissəsidir. Azərbaycan, eyni zamanda, İran ərazisində Astara-Rəşt dəmir yolunun tikintisinin maliyyələşdirilməsində iştirak etməyə hazırdır.

Gələn il Bakı-İran sərhədi müasir magistral avtomobil yolu istismara veriləcək.

Beləliklə, Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi son mərhələyə qədəm qoyub. Şimal-Cənub nəqliyyat dəhlizi bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Bizi birləşdirən Xəzər dənizi ümumi sərvətimizdir. Xəzər sülh, dostluq və əməkdaşlıq dənizidir. Xəzər dənizində sərhəd mühafizəsi işində etibarlı əməkdaşlıq mövcuddur.

Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə keçirilən "Beynəlxalq Ordu Oyunları - 2017" çərçivəsində bu yaxınlarda Bakıda "Dəniz Kuboku - 2017" beynəlxalq yarışları təşkil olundu. Bundan əlavə, hərbi dəniz qüvvələrimizin gəmiləri qarşılıqlı olaraq dostluq səfərləri həyata keçirirlər. Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, narkotrafik, qaçaqmalçılığa qarşı birgə mübarizə yaxşı nəticələrə gətirib çıxarıb. Bu sahələrdə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir.

**Azərbaycan sivilizasiyalararası, dinlərarası dialoqun möhkəmləndirilməsi işinə də öz töhfəsini verir. Bizim təşəbbüsümüzlə 2008-ci ildə başlanan, 100-dən çox müsəlman və xristian ölkəsini birləşdirən "Bakı Prosesi" BMT tərəfindən dəstəklənir və yüksək qiymətləndirilir.**

2015-ci və 2017-ci illərdə 100-dən çox ölkənin iştirakı ilə Bakıda keçirilən birinci Avropa və dördüncü İslam Həmrəyliyi Oyunları idman yarışları olmaqla bərabər, eyni zamanda, mədəniyyətlərarası dialoqa verdiyimiz növbəti töhfə idi.

İran, Rusiya, Azərbaycan üçtərəfli əməkdaşlığı regionda təhlükəsizliyin, sabitliyin, iqtisadi inkişafın təmin olunmasına xidmət edir.

x x x

Görüşün sonunda Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Rusiya Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzalamışlar.

ADY
Azərbaycan Dəmir Yolları QSC
www.ady.az



Azərbaycan xalqını 9 noyabr - Dövlət bayrağı günü münasibətilə təbrik edir, xalqımıza hər zaman əmin-amanlıq arzu edirik!

# GƏLƏN İLİN DÖVLƏT BÜDCƏSİ ÖLKƏMİZDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN DAVAMLILIĞINI TƏMİN EDƏCƏK



Noyabrın 7-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət, İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclası keçirilib. İclasda respublikamızın 2018-ci il dövlət büdcəsi haqqında məsələyə baxılmışdır.

İclası aparan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə hər bir ölkədə dövlət büdcəsi layihəsinin müzakirəsinin maraqla qarşılandığını demişdir. Onun sözlərinə görə, qlobal risklər şəraitində ölkəmizin gələn ilin dövlət büdcəsinin layihəsi mükəmməl və şəffaf hazırlanıb. Müzakirə zamanı səslənəcək təkliflər isə imkanlar daxilində nəzərə alınacaq.

Maliyyə naziri Samir Şərifov gələn ilin dövlət büdcəsinin layihəsi ilə bağlı ətraflı məlumat vermiş, bildirmişdir ki, növbəti ilin büdcə layihəsi dünya və Azərbaycan iqtisadiyyatında gözlənilən meyillərin təhlili əsasında hazırlanıb. Büdcə layihəsinin tərtibi zamanı İqtisadiyyat Nazirliyinin hazırladığı 2018-2021-ci illər üzrə makroiqtisadi proqnoz göstəriciləri, o cümlədən 2018-ci ildə ÜDM-in 1,5 faizlik, qeyri-neft ÜDM-inin isə 2,9 faizlik artım sürəti əsas kimi qəbul edilib. Dövlət və icmal büdcələrinin gəlirlərinin hesablanması üçün 1 barrel xam neftin satış qiyməti 45 ABŞ dolları səviyyəsində götürülüb. Prezident İlham Əliyev qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafını, bu sahənin ÜDM-də və büdcə gəlirlərində xüsusi çəkisinin artırılmasını, kiçik və orta sahibkarlıq fəaliyyəti üzrə stimullaşdırıcı vergi islahatlarının davamlılığını, azad rəqabət mühitinin inkişaf etdirilməsini, investisiya qoyuluşunun təşviqinin genişləndirilməsini 2018-ci ildə hökumətin prioritet vəzifələri kimi müəyyənləşdirib. 2018-ci ilin dövlət büdcəsi hazırlanarkən bu vəzifələrin icrası ilə əlaqədar maliyyə təminatının yaradılmasına, ölkənin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsinə, kənd təsərrüfatı istehsalının stimullaşdırılmasına, elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və idman sektorlarının maddi-texniki təminatının daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin artırılmasına, habelə beynəlxalq öhdəliklərimizin, ilk növbədə, beynəlxalq təşkilatlara üzvlük haqlarının maliyyələşdirilməsinə üstünlük verilib.

2018-ci il üçün dövlət büdcəsinin gəlirləri 20 milyard 127 milyon manat proqnozlaşdırılır ki, bu da ÜDM-in 29 faizi həcmində olmaqla, 2017-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 3 milyard 361 milyon manat və yaxud 20 faiz, 2016-ci ilin faktiki icra göstəricisi ilə müqayisədə 2 milyard 621,2 milyon manat və yaxud 15 faiz çoxdur. Neft sektoru üzrə büdcə gəlirlərinin dövlət büdcəsi gəlirlərində xüsusi çəkisi 55,1 faiz və ya 11 milyard 96 milyon manat nəzərdə tutulur. Neft sektoru üzrə büdcə gəlirlərinin 83,1 faizini və ya 9 milyard 216 milyon manatını Dövlət Neft Fondundan transfertlər, 16,9 faizini və ya 1 milyard 880 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edəcək. Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmalarda ADRNŞ üzrə büdcə ödənişləri 1 milyard 380 milyon manat və Azərbaycan Beynəlxalq Əməkdaşlıq Şirkəti üzrə mənfəət vergisi 500 milyon manat nəzərdə tutulur.

Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin dövlət büdcəsi gəlirlərində xüsusi çəkisi 44,9 faiz və ya 9 milyard 31 milyon manat nəzərdə tutulur. Bu da 2017-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 205 milyon manat və ya 2,3 faiz çoxdur. Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin 66,7 faizini və ya 6 milyard 27 milyon manatını vergi orqanlarının xətti ilə daxilolmalar, 26,9 faizini və ya 2 milyard 430 milyon manatını Dövlət Gömrük Komitəsindən daxilolmalar, 6,4 faizini və ya 574 milyon manatını digər gəlirlər təşkil edəcək.

2018-ci ilin dövlət büdcəsinin xərcləri 20 milyard 905,7 milyon manat proqnozlaşdırılır. Bu, 2017-ci illə müqayisədə 2 milyard 964,7 milyon manat və ya 16,5 faiz, 2016-cı ilin faktiki icrası ilə müqayisədə 3154,4 milyon manat və ya 17,8 faiz çox deməkdir. Gələn il üçün dövlət büdcəsinin xərclərinin ÜDM-də xüsusi çəkisi 30,1 faiz təşkil edəcək ki, bu da 2017-ci ilə nisbətən 3,8 faiz çoxdur.

Əvvəldə qeyd edildiyi kimi, 2018-ci ilin dövlət büdcəsinin xərclərinin tərtibi zamanı ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətləri, o cümlədən kənd təsərrüfatının stimullaşdırılması, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və fiziki infrastruktur layihələrinin həyata keçirilməsi, ölkədə məşğulluğun səviyyəsinin yüksəldilməsi və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi, beynəlxalq təşkilatlara üzvlük haqları və dövlət borcuna xidmətlə bağlı məsələlərin maliyyə təminatı diqqətdə saxlanılıb.

Gələn il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən xərclər üçün 5 milyard 371,7 milyon manat vəsait nəzərdə tutulur ki, bu da 2017-ci ilə nisbətən 80,8 milyon manat və ya 1,5 faiz çoxdur. Bütövlükdə, bu sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 25,7 faiz təşkil edəcək.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova 2018-ci il və növbəti 3 il üçün iqtisadi inkişaf proqnozları barədə məlumat vermiş, qeyd etmişdir ki, bu dövrlər üçün iqtisadi inkişaf konsepsiyasında strateji məqsədlər fiskal dayanıqlığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi ilə makroiqtisadi sabitliyin təmin olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və diversifikasiyasının sürətləndirilməsi, insan kapitalının inkişafı və əhalinin həssas qrupların təminatının daha da yaxşılaşdırılmasıdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov bildirmişdir ki, neft qiymətlərinin aşağı düşməsi ilə əlaqədar gəlirlərin azalması şəraitində belə, Dövlət Neft Fondunun dövlət və icmal büdcəyə ayırmaları tam və vaxtında icra olunur. Bu da makro və fiskal sabitliyin, dayanıqlığın təmin olunmasına öz töhfəsini verir.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov gələn il üçün kənd təsərrüfatı ilə bağlı olan sahələrə ayrılan xərclərin artırılmasını müsbət qiymətləndirmişdir.

Deputatlardan Vahid Əhmədov, Aydın Hüseynov, Zahid Oruc, Əli Məsimli də büdcə layihəsi ilə bağlı təkliflərini bildirmişlər. Maliyyə naziri deputatların fikirlərinə aydınlıq gətirdikdən sonra gələn ilin büdcə layihəsi ilə bağlı qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunmuşdur.



# STRATEJİ YOL XƏRİTƏSİNİN (SYX-nin) HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ MÜLAHİZƏLƏR

**(əvvəli ötən sayımızda)**

İnnovasiya siyasətinin əsasları ölkədə iqtisadiyyatın vəziyyətinə, sosial və siyasi situasiyalara adekvat olan qanunvericilik aktının külliyatının qəbulu yolu ilə qorunur. Məhz bu normativ hüquqi sənədlərdə innovasiya sahəsində idarəetmənin subyekt və obyektləri, innovasiya iştirakçılarının hüququ, vəzifələri və məsuliyyəti təyin edilir. Ölkədə innovasiya sahəsində aşağıdakı istiqamətlərdə qanunların qəbulu zəruridir:

*- innovasiya ideyasının işlənilməsi və həyata keçirilməsində iştirak edən hər bir hüquqi və fiziki şəxsin marağının qorunması;*

*- innovasiya fəaliyyətilə məşğul olan subyektlərin təminatlı və güzəştli şərtlərlə kredit almaq imkanının olması;*

*- elmi kollektivlərin, eləcə də ayrı-ayrı alimlərin və mütəxəssislərin intellektual mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi və s.*

Yuxarıda qeyd etdiyimiz kimi, innovasiya mühitinin təminatçısı artıq yüksək səviyyədə inkişaf etmiş ölkələrdə formalaşmaq ərəfəsində olan innovasiya iqtisadiyyatıdır.

Artıq dünyanın inkişaf etmiş ölkələrində innovasiya iqtisadiyyatı formalaşmaqdadır. Bu iqtisadiyyat, demək olar ki, innovasiya mühiti ilə eyni gücdədir. İnnovasiya iqtisadiyyatı innovasiya fəaliyyətinin bütün sahələrinin inkişafına zəmin yaradır. İnnovasiyanın inkişafının yüksək texnologiyaların işlənilməsi və tətbiqi, sahələrarası, xüsusilə elm-təhsil-istehsal-bazar arasında yaranan inteqrasiya, innovasiya qurumlarının yaradılması, innovasiyanın infrastrukturları və onların fəaliyyətləri, insanların intellektual səviyyələrinin yüksəldilməsilə əlaqədar olmasına baxmayaraq, innovasiya iqtisadiyyatına verilən tərif insan amilinə - insan kapitalının formalaşdırılmasına əsaslanır. İnnovasiya iqtisadiyyatının formalaşdırılması ilə əlaqədar innovasiya iqtisadiyyatı elmi də formalaşır. İnnovasiyaya verilən tərifə diqqət yetirək:

İnnovasiya iqtisadiyyatı elə yeni bir elm sahəsidir ki, innovator tərəfindən icad edilən yüksək texnologiyaların, avadanlıqların, idarəetmə sistemlərinin yaradılmasını, cəmiyyətin qarşısında yaranan problemlərin həll edilməsinə istiqamətləndirə bilən kadrların hazırlanmasını əhatə edir.

Məhz bu kadr insan kapitalıdır. İnsan kapitalı – bu, təkcə insanın malik olduğu elmin, qabiliyyətin, davranışın, bacarığın mexaniki toplusunu özündə səciyyələşdirən şəxs deyildir. Bu, insanın yaradıcılıq potensialıdır ki, innovasiya təfəkkürünün formalaşdırılması və fəaliyyəti hesabına son nəticədə iqtisadiyyatın innovasiya yönümünü müəyyən edir. Deməli, innovasiya iqtisadiyyatı birbaşa insanların öyrədilməsilə əlaqədardır. Bu isə öz növbəsində təhsil sistemində müvafiq islahatların edilməsilə pedaqoji innovasiyanın yaradılmasını tələb edir. Bu vəzifənin yerinə yetirilməsi aşağıdakıları zəruri edir: mənəvi-əxlaqi tərbiyənin verilməsi; peşəkarlıq səriştəsinin formalaşdırılması; innovasiya yaratmaq qabiliyyəti; innovasiya mədəniyyətinin inkişaf etdirilməsi; fəal innovasiya fəaliyyətinin motivləşdirilməsi; işgüzarlıq və bizneslə məşğul olmaq qabiliyyətinin formalaşdırılması.

Yeri gəlmişkən, qeyd etmək olar ki, insan kapitalının formalaşdırılmasına SYX-də geniş yer verilmişdir.

Ölkədə innovasiya mühitinin formalaşdırılmasının ən əsas konsepsiyalarından biri Milli İnnovasiya Sisteminin (MİS-in) yaradılmasıdır. MİS ölkədə innovasiya fəaliyyətinin gücləndirilməsi və inkişaf etdirilməsi məsuliyyətini öz üzərinə götürən yüksək səviyyəli dövlət orqanıdır.



**A.H.Tağıyev,
Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki**

Milli dilimizdə MİS haqqında çox zəngin monoqrafiya və dissertasiya materiallarının olduğunu nəzərə alaraq, burada yalnız onun funksiyalarının izahının verilməsilə kifayətlənəcəyik.

MİS-in əsas funksiyaları ölkədə innovasiyanın yaradılması, innovasiya məhsulunun istehsalı və onun reallaşdırılması ilə əlaqədardır.

MİS-in əsas funksiyaları onun altsistemlərə bölünməsi üçün meyarlar kimi çıxış edirlər. Altsistemlər hal-hazırda mövcud olan elementlərin sistemləri kimi bölünürlər. MİS-in struktur altsistemləri aşağıdakılardır: ***yeni biliklərin yaradılması; innovasiya məhsulunun istehsalı; innovasiya məhsullarının reallaşdırılması; geniş innovasiya fəaliyyətinə köməklik göstərilməsi. Yeni biliklərin yaradılması altsistemi generasiya, təkrar emal, yeni biliklərin innovator tərəfindən elmi, elmi-texnoloji, təhsil sektorlarından generasiya edilərək, reallaşdırılması ilə əlaqədar olan işləri yerinə yetirir.***

İnnovasiya məhsullarının istehsalı altsistemi yeni məhsulların istehsalı, ideya, "nou-hau" şəklində vətəndaşların tələbatlarının ödənilməsi üçün yeni məhsulların istehsalları, xidmətləri, texnologiyaları, innovasiya idarə metodlarında elmi biliklərin istifadəsi vasitəsilə həyata keçirilir. İnnovasiyaların reallaşdırılması altsistemi yeni məhsullar və xidmətlərin alqı-satqısı şəklində yeni biliklərin kommersiyalaşdırılması prosesini həyata keçirir.

İnnovasiyalara köməklik altsistemi normativ-hüquqi bazanın, vergi stimullaşdırılması, innovasiya infrastrukturunun inkişafının formalaşdırılması yolu ilə MİS fəaliyyəti üçün əlverişli mühitin yaradılması prosesini müəyyən edir. Ölkədə innovasiya mühitinin formalaşdırılmasında əhalinin innovasiya fəallığının yüksəldilməsi özünəməxsus yer tutur.

İnnovasiya fəallığı makro, mikro, mezo və müəssisə səviyyələrində olur. Ölkədə makro, mikro və mezo səviyyələrində olan innovasiya fəallığı ölkə, sahə və region səviyyələrində innovasiyanın idarə edilməsində özünü büruzə verir.

Müəssisə əməkdaşlarının və geniş əhali kütləsinin innovasiya fəallığının artırılması innovasiya mühitinin formalaşdırılmasında mühüm rol oynayır.

Fikrimizcə, bu istiqamətdə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

*- kütləvi informasiya vasitələrində innovasiyanın geniş təbliğ edilməsi;*

*- müəssisədə innovasiya üzrə dərnəklərin təşkil edilməsi;*

*- mütəmadi olaraq müəssisələrdə yeniliklər üzrə müsabiqələrin keçirilməsi;*

*- müsabiqədə seçilən yüksək səviyyəli ideyanın müəssisədə həyata keçirilməsi işinə rəhbərlik etmək müsabiqə qalibinə həvalə edilsin;*

*- müəssisədə innovasiya ideyası axtarışının müəllifləri bu sahədə transmilli şirkətlərin iş təcrübəsini öyrənsinlər və s.*

Qeyd etmək yerinə düşər ki, geniş əhali kütləsinin innovasiya sahəsində maarifləndirilməsində Azərbaycan İqtisadçılar İttifaqının müstəqil iqtisadi-siyasi qəzeti olan "İqtisadiyyat" qəzetinin apardığı işlər olduqca önəmli olmuşdur.

Qəzetin 2011-2017-ci illərdə çıxan saylarında innovasiyaya aid müxtəlif rubrikalar təşkil edilmiş və bu rubrikalarda alimlər və mütəxəssislər silsilə məqalələrlə çıxış etmişlər.

Azərbaycanda innovasiya mühitinin formalaşdırılması konsepsiyaları içərisində ən əsas yerlərdən birini ölkədə innovasiya qurumlarının, o cümlədən innovasiya infrastrukturlarının yaradılması tutur.

Ümumiləşmiş şəkildə innovasiya infrastrukturunun həll etdiyi məsələlər: informasiya təminatı, kiçik firmaların inkişafını təmin edən informasiya şəbəkələrinin yaradılması və onların beynəlxalq şəbəkələrə qoşulmasının təmin edilməsi; maliyyə resurslarının akkumulyasiyası (yığılması), innovasiya, investisiya, vençur fondlarının, innovasiya banklarının yaradılması; innovasiya fəaliyyətinə istehsal-texnoloji, texniki köməklik; innovasiya məhsullarının sertifikatlaşdırılması və standartlaşdırılması; investisiya və innovasiya layihələrinin həyata keçirilməsinə köməklik göstərmək; innovasiya məhsullarının, texnikasının və texnologiyalarının yayılmasını təmin edən sərgi-yarmarka fəaliyyətini təşkil etmək; elmtutumlu, rəqabətqabiliyyətli məhsulların, yüksək texnologiyaların yaradılması və onların bazara, o cümlədən dünya bazarlarına hərəkətini təmin etmək məqsədi ilə konsaltinq, injinirinq, audit, reklam və ekspertiza xidmətlərinin göstərilməsi; innovasiya fəaliyyəti və sahibkarlıq üçün mütəxəssislərin hazırlanması, təkrar hazırlığı və ixtisaslarının artırılması; xarici tərəfdaşlar haqqında məlumatların alınmasına, müqavilələrin, o cümlədən beynəlxalq sazişlərin bağlanılmasına köməklik; innovasiya prosesləri üçün işlənilmələrin yerinə yetirilməsi və s.

İnnovasiya sahibkarlığının inkişafı ölkədə innovasiya mühitinin formalaşdırılmasına, innovasiya fəaliyyətinin müəyyən mərhələlərinin yerinə yetirilməsinə, infrastruktur xidmətlərinin göstərilməsinə güclü təkan verə bilir.

İnnovasiya sahibkarlığının iri təşkilati-hüquqi formaları, xüsusilə elmi-texniki problemlərin həllinə yönəldilən maliyyə-sənaye qrupları, konsersiumlar, qlobal korporasiyalar, şəbəkə ittifaqları, müxtəlif təyinatlı ittifaqları və bu kimi subyektlər ölkədə innovasiya fəaliyyətinin inkişafına hərtərəfli zəmin yaradır.

İnnovasiya sahibkarlığının bir sıra kiçik təşkilati-hüquqi formaları vardır ki, onlar öz seçdikləri strategiyaya uyğun olaraq, innovasiya prosesinin həyata keçirilməsinin məlum mərhələsində iştirak edir və həmin mərhələnin uğurla başa çatdırılmasında əhəmiyyətli rol oynayırlar. Bunlara nümunə kimi vençur, eksplerent, patient, komutant və violent firmalarını göstərmək olar.

Ölkədə innovasiyanın yaxın və uzaq perspektivdə inkişafını təmin etmək üçün Azərbaycan Respublikası da bir sıra beynəlxalq innovasiya layihələrinin yerinə yetirilməsinə qoşulmalıdır. Xüsusilə, yüksək texnologiyaların işlənilməsi və həyata keçirilməsi üzrə olan layihələrdə iştirak etmək iqtisadi inkişafın 5-ci və 6-cı dalğasının texnoloji ukladının ölkəmizdə formalaşdırılmasına imkan yaradar. Bu isə öz növbəsində ölkəmizdə yaxın və uzaq perspektivdə innovasiyanın müstəqil olaraq inkişaf etdirilməsinə zəmin yaratmış olar.

Yekunlaşdıraraq, bu nəticəyə gəlmək olar ki, SYX-nin həyata keçirilməsi üzrə idarəetmə təşkilatının yaradılması və ölkədə innovasiya mühitinin formalaşdırılması layihənin uğurla həyata keçirilməsinin zəruri şərtlərindəndir.

# Vergilər Nazirliyində kollegiya iclası keçirilib



Vergilər Nazirliyində vergi orqanlarına daxil olan vətəndaş müraciətlərinə baxılması və vergi proqnozlarının icra vəziyyətinə həsr olunmuş kollegiya iclası keçirilib.

İclasda çıxış edən kollegiyanın sədri, Azərbaycan Respublikasının vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov hər iki məsələnin çox aktual olduğunu vurğulayaraq, vətəndaş müraciətlərinə baxılması zamanı qanunvericiliyin bütün tələblərinə ciddi əməl olunmasının təmin edilməsi hesabına vətəndaş məmnunluğunun səviyyəsinin yüksəldilməsi, habelə son kollegiya iclasında qəbul edilmiş "2017-ci ilin son 4 ayı üçün dövlət büdcəsinin proqnoz gəlirlərinin icrası üzrə Tədbirlər Planı"nın icra vəziyyəti barədə danışaraq, dövlət büdcəsinin gəlirlərinin təmin edilməsi istiqamətində görülən işlərin daha intensiv və səmərəli aparılmasının zəruri olduğunu diqqətə çatdırıb.

Bildirilib ki, ölkədə yaranmış əlverişli biznes mühiti vergi ödəyicilərinin sayının artması ilə nəticələnib ki, bu da, öz növbəsində, vergi nəzarətinin təmin edilməsi və vergi ödəyicilərinə göstərilən xidmətlərin əhatəsinin genişləndirilməsini və vergi orqanı əməkdaşlarının məsuliyyətinin artırılmasını tələb edir.

Vergi inzibatçılığında yeni yanaşmaların tətbiq edilməsinin, inzibatçılığın səmərəliliyinin yüksəldilməsinin vacib olduğunu qeyd edən vergilər naziri vergi ödəyicilərinə xidmətin keyfiyyət və ünvanlılığının artırılmasının, hər bir vergi ödəyicisinə fərdi yanaşmanın təmin edilməsinin, sahibkarlıq subyektləri ilə kommunikasiyanın daha səmərəli formalarına üstünlük verlməsinin zəruriliyini xüsusi olaraq vurğulayıb.

Kollegiya üzvlərinin nəzərinə çatdırılıb ki, vergi sistemində həyata keçirilən bütün tədbirlər sistemli və koordinasiyalı xarakter daşımalı, daxili kommunikasiya daha səmərəli qurulmalı, vergi risklərinin təhlili və vergi ödəyicilərinə xidmət göstərən sahələr, eyni zamanda, vergi nəzarəti tədbirlərini həyata keçirən bütün strukturlar fəaliyyətlərini əlaqələndirməli və vergi orqanları qarşısında duran əsas vəzifələrin icrasına yönəltməlidirlər.

Kollegiya iclasında vergi orqanlarına daxil olan vətəndaş müraciətlərinə baxılması vəziyyəti geniş müzakirə edilib. Bildirilib ki, vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması, onlara vaxtında və obyektiv baxılaraq cavablandırılması ilə bağlı məsələlər həmişə Vergilər Nazirliyinin diqqət mərkəzində saxlanılır, hər ay vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyəti haqqında vergilər nazirinə müvafiq hesabat təqdim edilir.

Lakin bütün bunlara baxmayaraq, vətəndaşların qəbulu, eləcə də aparılan monitorinq və təhlillər zamanı vətəndaş müraciətlərinə baxılmasında hələ də nöqsanlara yol verilməsi ilə bağlı çoxsaylı suallar olduğu meydana çıxır. Bəzi hallarda vergi orqanları tərəfindən müraciətlərin dərindən və hərtərəfli araşdırılmaması səbəbindən vətəndaşlar yuxarı dövlət instansiyalarına üz tutmalı olurlar. Nazir, xüsusilə vergi məsələləri ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Birinci Vitse-Prezidentinə ünvanlanmış və aidiyyəti üzrə baxılmaq üçün Vergilər Nazirliyinə daxil olmuş vətəndaş müraciətlərinə baxılmasına ciddi nəzarət edilməsinin vacibliyini diqqətə çatdıraraq, bu məqsədlə bir neçə gün öncə ayrıca əmr imzalandığını bildirib. Həmin əmrə əsasən, müraciətlərin hərtərəfli araşdırılmasının təmin edilməsi, habelə vətəndaş məmnunluğunun səviyyəsinin yüksəldilməsi məqsədilə nazirliyin aparatında müraciətlər müsbət həllini tapmadıqda, ərizəçilər və ya onların səlahiyyətli nümayəndələri vergilər nazirinin birinci müavini və ya müvafiq sahəni kurasiya edən nazir müavinləri tərəfindən qəbul edilməli, qaldırılan məsələlər bir daha araşdırılmalı və yalnız bundan sonra ərizəçilərə onların müraciətlərinə baxılmasının nəticələri barədə cavab verilməlidir. Vergilər naziri aidiyyatı strukturlara sözügedən əmrdən irəli gələn məsələlərə ciddi əməl etməyi tapşırıb.

F.Məmmədov vətəndaş müraciətlərinin araşdırılması zamanı nöqsana yol vermiş vergi orqanı əməkdaşlarının intizam məsuliyyətinə cəlb edilməsi ilə bağlı Daxili təhlükəsizlik departamenti, nöqsanların yaranmasına səbəb olan halların aradan qaldırılması ilə bağlı isə nazirliyin bütün struktur vahidlərinin və bölmələrinin rəhbərlərinə konkret tapşırıqlar verib. Kollegiyada gündəlikdə duran məsələlər barədə ətraflı müzakirələr aparılıb.

Sonda F.Məmmədov vətəndaş məmnunluğunun təmin olunmasının vergi orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindən olduğunu vurğulayaraq, vergi orqanlarının işinin müasir tələblərə cavab verən səviyyədə qurulması, cari ilin sonunadək Vergilər Nazirliyinin struktur vahidlərinin və bölmələrinin bütün imkanlarının vergi orqanları qarşısında duran vəzifələrin icrasına səfərbər edilməsi ilə bağlı konkret göstərişlər verib.

Kollegiyanın qərarı ilə vergi orqanlarına daxil olmuş vətəndaş müraciətlərinə baxılması zamanı vətəndaş məmnunluğunun səviyyəsinin yüksəldilməsi, vergi ödəyicilərinin narazılıqlarına səbəb olan halların və vergi oranlarına daxil olan ərizə və şikayətləri doğuran səbəblərin aradan qaldırılması istiqamətində əlavə və təsirli tədbirlər görülməsi üçün müvafiq tapşırıqlar müəyyən edilib. Bununla yanaşı, Vergilər Nazirliyinin strukturlarının koordinasiyalı fəaliyyətinə nəzarətin gücləndirilməsi, müvafiq struktur vahidlərinə büdcə proqnozları ilə bağlı mövcud potensialın təhlil edilməsi və nəticələri barədə təkliflərin hazırlanması, habelə xarici investisiyalı şirkətlərlə vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə struktur dəyişikliyi ilə bağlı təkliflərin verilməsi tapşırılıb.

Xatırladırıq ki, kollegiya iclasından bir neçə gün əvvəl vergilər nazirinin əmri ilə Nazirliyin struktur vahidlərinin rəhbərliyində kadr dəyişiklikləri aparılıb. Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Departamentinin baş direktoru Zaur Fətizadə Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin baş direktoru, Milli Gəlirlər Departamentinin baş direktoru Natiq Şirinov Vergi risklərinin təhlili və nəzarəti Departamentinin baş direktoru vəzifəsinə keçiriliblər. Zöhrab Ömərov Vergi qanunvericiliyinin icrasına nəzarət Departamentinin baş direktoru, Zamin Rzayev Vergi öhdəliklərinin icrasına nəzarət Departamentinin baş direktoru təyin ediliblər.

# "Kapital Bank": Kartı olmayan qalmasın – hamıya pulsuz kart




"Kapital Bank" müştəri xidmətinin inkişafı istiqamətində bir sıra işlər həyata keçirir.

Bankdan bildiriblər ki, "Kapital Bank" ödəniş kartları üzrə şərtləri sadələşdirərək, müştərilərə ödənişsiz əsasda təklif edir. Belə ki, müştərilər hesaba minimum 20 AZN ilkin mədaxil etməklə 2 illik "Visa" kartlarını əldə edə bilərlər. Müştəri kartı aldığı gün hesaba mədaxil etdiyi məbləğdən istifadə edə bilər.

"Kapital Bank" "Visa International" beynəlxalq ödəniş sisteminin üzvüdür. Ödəniş kartlarını "Kapital Bank" filiallarında və ya bankın korporativ saytından onlayn sifariş etmək mümkündür. "Kapital Bank" Azərbaycan manatı, ABŞ dolları və avro valyutası əsasında ödəniş kartlarını 1, 2 və ya 3 il müddətinə təklif edir.

Qeyd edək ki, hazırda dövriyyədə "Kapital Bank"ın 3 milyona yaxın ödəniş kartı var. Prossesinq mərkəzinin inkişafı, həftənin bütün günləri fasiləsiz işləməsi, sabit fəaliyyət göstərməsi milyonlarla müştəriyə xidmət göstərməsində müsbət amil hesab olunur. "Kapital Bank"ın ölkə üzrə 600-dək bankomatı, 9000-dək POS-terminalı var.

Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan "Kapital Bank" 92 filialı və 7 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya bankın müxtəlif sosial şəbəkələrdəki səhifələrinə müraciət etmək olar.

## Əfqanıstan Bakı-Tbilisi-Qars dəmir yoluna böyük maraq göstərir



Noyabrın 7-də iqtisadiyyat naziri Şahin Mustafayev Əfqanıstanın maliyyə naziri Eklil Əhməd Hakiminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

"Azəravtoyol", "Ərzaq məhsullarının tədarükü və təchizatı" səhmdar cəmiyyətlərinin, Azərbaycanın ixrac assosiasiyaları rəhbərlərinin, 25 iri yerli şirkətin nümayəndəsinin iştirak etdiyi görüşdə nazir Şahin Mustafayev Azərbaycan-Əfqanıstan əlaqələrinin inkişaf etdiyini, əməkdaşlığın genişlənməsində qarşılıqlı səfərlərin və keçirilən görüşlərin əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycan humanitar, hərbi təhsil və tibbi təlimlər, minalardan təmizləmə, mülki treninqlər sahələrində Əfqanıstana dəstək göstərir.

Ölkələrimiz ticarət, investisiya, İKT, xidmət və s. kimi iqtisadi sahələrdə də əməkdaşlıq edir. 2017-ci ilin fevralında Kabilə ixrac missiyası təşkil edilib və missiya çərçivəsində bir sıra Azərbaycan məhsullarının ixracına dair razılıqlar əldə olunub. Görüşdə qeyd edilib ki, Azərbaycan 14-15 noyabrda Aşqabadda keçiriləcək Əfqanıstan üzrə Regional İqtisadi Əməkdaşlıq Konfransında (RECCA) təmsil olunacaq.

İqtisadi əlaqələrin genişləndirilməsi baxımdan müxtəlif sahələr üzrə hüquqi bazanın yaradılmasının əhəmiyyətini vurğulayan nazir Şahin Mustafayev hazırda ölkələrimiz arasında müzakirə edilən bir sıra sənədlərə, o cümlədən İqtisadi və Ticarət Əməkdaşlığı haqqında Sazişə dair fikirlərini bölüşüb. Bildirilib ki, bu ilin 9 ayında Azərbaycandan keçməklə Avropadan Əfqanıstana hərəkət edən TIR-ların sayı 5 dəfəyə yaxın artıb. Bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verildiyini xatırladan nazir Şahin Mustafayev bu mühüm əhəmiyyətli dəmir yolu xəttinin Əfqanıstan daşımaları üçün böyük imkanlar yaratdığını vurğulayıb. Bundan başqa, Əfqanıstanda yerləşən NATO qüvvələrinin tələbatını ödəmək məqsədilə Azərbaycan şirkətləri onları qida və geyimlə təchiz edə və ya bu sahədə birgə müəssisələr yarada bilər. Nazir Şahin Mustafayev Bakının da namizəd şəhərlər sırasında olduğu "EXPO 2025" beynəlxalq tədbirinin Azərbaycanda keçirilməsinə Əfqanıstanın dəstək olmasını xahiş edib. Əfqanıstanın maliyyə naziri Eklil Əhməd Hakimi ölkəsinin Azərbaycanla iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu və iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf istiqamətləri barədə fikirlərini bildirib, Əfqanıstanın Bakı-Tbilisi-Qars dəmir yoluna böyük maraq göstərdiyini vurğulayıb.

## Səlim Müslümov: Xüsusi komissiya pensiyaçıların hər birinin işinə baxacaq

Yaxın zamanlarda Azərbaycanda pensiya xərclərinin hesablanması üçün xüsusi hökumət komissiyası yaradılacaq.

Trend-in məlumatına görə, bunu 2018-ci il dövlət və icmal büdcənin layihəsinin müzakirələrinin ikinci günündə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov deyib.

Nazir xatırladıb ki, Əmək məcəlləsinə edilən dəyişikliklərdən sonra Dövlət Sosial Müdafiə Fonduna transferlər anlayışı aradan qalxdı. Bunun əvəzində "dövlət büdcəsinin öhdəlikləri" anlayışı daxil edildi: "Pensiyaçıların dəqiq bölgüsü yarandı. Yəni, 1992-ci ilə qədər yaranmış pensiya öhdəlikləri indi dövlət büdcəsinin öhdəlikləri hesab olunur. Altı ay ərzində xüsusi hökumət komissiyası 1,3 milyon pensiyaçının hər birinin işinə baxacaq ki, onların stajlarını müəyyən etsin".

O, əlavə edib ki, dövlət qulluqçularına və hərbçilər üçün nəzərdə tutulmuş artımdan başqa, hökumət hər ay pensiyaların ödənişi üçün 228 milyon manat ayıracaq.

S.Müslümov onu da qeyd edib ki, dəyişikliklər pensiyaların indeksləşməsinə də təsir göstərəcək: "Fərq ondadır ki, əvvəl pensiya baza və sığorta hissəsinə bölünürdüsə, indi o anlayışlar yoxdur və 2018-ci ildə indeksləşmə pensiyanın bütün həcmini əhatə edəcək".

## Bakının toxuculuq sənayesi 44,1 faiz artıb



Yanvar-sentyabr aylarında Bakı şəhərinin toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 73,8 mln. manat dəyərində məhsul istehsal edilib.

Bakı Şəhər Statistika İdarəsindən bildiriblər ki, əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə toxuculuq sənayesində 44,1%, geyim istehsalında 5,3%, dəri və dəridən məmulatlar, ayaqqabı istehsalında 22,1% artım müşahidə olunub.

## Sənaye üsulu ilə iki milyardıncı ton neftin hasil edilməsi münasibətilə bir qrup neftçi təltif edilib



Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanda neft yataqlarından sənaye üsulu ilə iki milyardıncı ton neftin hasil edilməsi münasibətilə neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə bir qrup neftçinin təltif edilməsi ilə bağlı sərəncamlar imzalayıb.

Sərəncamlara əsasən, 1 nəfər "Şöhrət" ordeni, 2 nəfər 2-ci dərəcəli "Əmək" ordeni, 12 nəfər 3-cü dərəcəli "Əmək" ordeni, 48 nəfər "Tərəqqi" medalı ilə təltif olunub, 3 nəfərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

Həmçinin, Azərbaycanda neft yataqlarından sənaye üsulu ilə iki milyardıncı ton neftin hasil edilməsi münasibətilə neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə 8 nəfərə "Əməkdar mühəndis", 1 nəfərə "Əməkdar hüquqşünas" fəxri adı verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# *Göyçay inkişaf yolunda inamla addımlamaqdadır*

**"Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası bölgələrimizin simasını dəyişdirmişdir."**

**İ.Əliyev**

Hər il Göyçayda noyabr ayında keçirilən və artıq milli ənənəyə çevrilmiş Nar festivalı bu il də öz rəngarəngliyi və zənginliyi fərqlənib. 12-ci dəfədir təşkil edilən bu məhsul bayramı Göyçayda meyvəçiliyin, eyni zamanda, turizmin inkişafı baxımından çox əhəmiyyətlidir. Hər il bir öncəkindən daha zəngin təşkil olunan bu bayram yerli əhali ilə bərabər, ölkəmizə gələn qonaqların da böyük marağına səbəb olur. Nar bayramı Azərbaycanın öz mədəni irsini, adət-ənənələrini qoruyub saxladığını bir daha sübut edir, ölkəmizin dünyada təbliğinə xidmət göstərir.

Nar iqtisadi cəhətdən gəlirli sahədir, onun insan sağlamlığı üçün də böyük əhəmiyyəti var. Nar şirəsindən və qabığından 20-dək xəstəliyin müalicəsində istifadə olunur. Təkcə bu il Göyçayın nar bağlarından 50 min tona yaxın nar istehsal olunacağı planlaşdırılır. Rayonda, həmçinin yeni və məhsuldar nar sortlarının yetişdirilməsi, təzə nar bağlarının salınması istiqamətində də tədbirlər görülür. Son 4 ildə 250 hektar sahədə yeni nar bağları salınıb ki, burada da əsasən "Gülövşə", "Vələs", "Şəndi", "Şirin", "Bala Mürsəl" sortları əkilib. İstehsal müəssisələri də imkanlarını ilbəil genişləndirirlər.

2017-ci ilin yanvar-sentyabr aylarında Göyçay rayonunun sosial-iqtisadi inkişafının əsas göstəriciləri yalnız narçılıqla deyil, həm də infrastruktur layihələrinin həyata keçirilməsi, aqrar sahənin daha da inkişaf etdirilməsi, yeni istehsal, ticarət və xidmət obyektlərinin inşa edilməsi, daimi iş yerlərinin açılması və s. ilə xarakterik olmuşdur.

Həmin dövr ərzində rayon iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 21,2 faiz və ya 45,4 milyon artaraq 224,5 milyon manat olmuşdur. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 24,2 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin 9 ayı ilə müqayisədə 11,2 faiz çoxdur. Eyni zamanda, aqrar sahədə də müəyyən uğurlar əldə edilmiş, cari ildə 21,6 min ton buğda, 19,7 min ton arpa istehsal olunmuş, keçən illə müqayisədə taxıl istehsalı 11,2 faiz, hər hektardan məhsuldarlıq 5,6 faiz artmışdır.

2017-ci il ərzində rayonda kənd təsərrüfatı sahəsində də ciddi uğurlar əldə edilmişdir. Bu sahədə baramaçılıq xüsusilə qeyd olunmalıdır. Belə ki, baramaçılıq sahəsində rayonun əvvəlki illərdəki şöhrətinin qaytarılması istiqamətində müvafiq iş aparılmış, 44 kumdarla 1900 qram barama qurdu bəslənməsi üçün müqavilələr bağlanılmış, 5293 kq barama tədarük edilərək tapşırığa 105,9 faiz əməl edilmişdir. Barama tədarükünün həcmi ötən illə müqayisədə 4,6 dəfə artmış, baramaçılığın yem bazasının daha da möhkəmləndirilməsi üçün tədbirlər görülmüş, Çin Xalq Respublikasından gətirilmiş tut tinglərinə lazımi aqrotexniki qulluq göstərilməsi və qorunması təmin olunmuşdur.



Ölkədə, həmçinin çəltikçiliyin inkişafı ilə bağlı mühüm işlər görülmüş, cari ildə rayonda 219 hektar sahədə çəltik əkilmiş və bol məhsul yetişdirilmişdir. Doqquz ay ərzində 196 hektar sahədə biçin aparılaraq, 250 tondan artıq çəltik tədarük edilmişdir. Lakin biçin kampaniyası lazımi şəkildə təşkil edilmədiyindən çəltik yığımının optimal müddətləri pozulmuş, havaların yağmurlu keçməsi ilə əlaqədar kombaynların işində ciddi problemlər yaranmış, bəzi yerlərdə çəltik sahələrinin əl ilə biçilməsi zərurəti yaranmışdır. 2018-ci ildə çəltik əkinləri sahəsinin ən azı 2 dəfə artırılması üçün lazımi tədbirlər görülməli və indidən münasib torpaq sahələri seçilməlidir. Çəltik bitkisinin digərlərindən fərqli olaraq suvarma suyuna olan tələbatı dəfələrlə çox olduğuna görə seçiləcək sahələrin su ilə təminatına daha ciddi fikir verilməlidir. Hesabat dövrü ərzində 434 hektar sahədə qarğıdalı, o cümlədən 383 hektar sahədə dənlik qarğıdalı əkilmiş, 540 ton silos, 438 ton dənlik qarğıdalı istehsal olunmuşdur. Rayonun kənd təsərrüfatının əsas sahələrindən olan tərəvəzçiliyin, xüsusən faraş tərəvəzçiliyin inkişafına xüsusi diqqət yetirilmiş, ümumi sahəsi 280 hektar olan 7565 istixanada 30 min tondan artıq faraş pomidor və xiyar istehsal olunmuşdur ki, bu məhsulun da böyük hissəsi ixrac edilərək, sahibkarlara xarici valyutada gəlir əldə etməyə imkan vermişdir. Yanvar-sentyabr aylarında bütövlükdə kənd təsərrüfatında məhsul buraxılışı ötən ilin müvafiq dövrünə əsasən 12,7 faiz artaraq 82,5 milyon manat olmuşdur.

Prezident İlham Əliyevin aqrar-sənaye kompleksinin inkişafı sahəsində verdiyi tapşırıqlara uyğun olaraq, cari ildə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə vəziyyəti yoxlanılmış, icarəçilərin istifadəsinə mövcud qanununvericiliyin tələbləri pozulmaqla verilmiş, təyinatı üzrə istifadə edilməyən 1000 hektar torpaq sahəsi müəyyənləşdirilmiş, həmin torpaq sahələrinin geri qaytarılması və yazlıq əkinlərin aparılması təmin olunmuşdur.

Uzun illər səmərəsiz istifadə olunan torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi, həmin torpaq sahələrinin suvarma suyu ilə təminatının bərpa edilməsi istiqamətində əməli tədbirlər görülmüş, yanvar-sentyabr aylarında rayonun Çaxırlı, Kürdşaban və Ləkçıplaq kəndlərinin ərazisindəki təsərrüfatdaxili kollektor-drenaj şəbəkələrinin 27435 p/m-lik hissəsində 42,3 min kub.m həcmində lildən təmizləmə işləri aparılmış, 201,5 km uzunluğunda suvarma arxları lil və çöküntülərdən təmizlənmiş, arxların suötürmə qabiliyyəti artırılmışdır. Göyçay çayı məcrasında 460 min kubmetr həcmində məcra təmizləmə işləri aparılmış, 35 ədəd hidrotexniki qurğu təmir edilmiş, Ləkçıplaq, Yeniarx, Alxasava, Cəyirli, Yekəxana, Ulaşlı-şıxlı, Qaraman, Mollahacılı və Qarayazı kəndlərinin əkinəyararlı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görülmüşdür.

Rayon əhalisinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təchizatının yaxşılaşdırılması sahəsində də bir sıra işlər görülmüşdür. Cari ilin doqquz ayında rayon paylayıcı elektrik şəbəkəsi tərəfindən Aşağı Qaraməryəm, Qarabaqqal, Kürdşaban, Cəyirli, Çaxırlı, Qaraməryəm, Alpout və Çərəkə kəndlərində zədələnmiş 10 transformator, şəhər və kənd yaşayış məntəqələrində 439 ədəd istismara yararsız elektrik dirəkləri yeniləri ilə əvəz edilmiş, şəhər ərazisində, həmçinin Ərəbcəbirli, Yalman, Mollahacılı və Çaxırlı kəndlərində 14,1 km uzunluğunda SİP kabellər çəkilmişdir.

Ölkə prezidenti tərəfindən kənd əhalisinin içməli su ilə təminatının yaxşılaşdırılması üçün verdiyi sərəncamlara əsasən, respublikanın 270 kəndində layihələrin icrası nəzərdə tutulur. Həmin sərəncamlara uyğun olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən rayonun Ərəbşahverdi, Xəlitli, Hacıağabəyli, Qaraxıdır, Şəkili və Çərəcə kəndlərində modul tipli su təmizləyici qurğuların quraşdırılmasına, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayonun 15 kəndinin - Müskürlü, Kürdşaban, İnçə, Alxasava, Aşağı Qaraməryəm, Alpout, Çaxırlı, Yenikənd, Şıxəmir, Bığır, Hacalıkənd, Qarabaqqal, Çayarxı, Məlikkənd və Mollahacılı kəndlərinin içməli su ilə təminatının yaxşılaşdırılması işlərinə başlanılmışdır. Bəzi kəndlərdə tikinti işləri əsasən başa çatdırılmış və hazırda şəbəkənin sınaqdan çıxarılması üçün tədbirlər görülür. "Azərsu" tərəfindən rayonun Qaraməryəm bölgəsini əhatə edən kəndlərin içməli su ilə təminatının daha da yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir və bu ərazidəki 8 kəndi içməli su ilə təmin etmək üçün İsmayıllı rayonunun ərazisindəki yeraltı su mənbəyindən yeni su şəbəkəsinin çəkilməsi üçün layihə-smeta sənədləri hazırlanır.

Şəhərin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi çərçivəsində 10 mindən artıq abonentə yeni su mənbəyindən içməli su verilişi təmin olunmaqdadır. Hazırda rayonun Şəhadət kəndində şəhərin çirkab sularını təmizləyən qurğu kompleksində son tamamlama işləri aparılır və layihə üzrə tələb olunan avadanlıqların quraşdırılmasına başlanılıb.

Əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması və ilk növbədə imkansız vətəndaşların işlə təmin olunması istiqamətində də müəyyən tədbirlər həyata keçirilmiş, cari ilin yanvar-sentyabr ayları ərzində 1033 yeni iş yeri açılmışdır ki, bunun da 1026-sı daimi iş yerləridir.

Göyçay rayon İcra Hakimiyyəti tərəfindən investisiya mühitinin yaxşılaşdırılaması istiqamətində müəyyən tədbirlər həyata keçirilmiş, 9 ay ərzində sahibkarlar tərəfindən rayona 6 milyon 873 min manat investisiya yatırılmışdır. İnvestisiyaların 335 min manatı kənd təsərrüfatına, 1228 min manatı yeyinti sənayesinə, 1710 min manatı xidmət sahələrinə, 400 min manatı bank sektoruna, 3200 min manatı Logistika Mərkəzinin tikintisinə cəlb edilmişdir.

Qeyd edək ki, Göyçayda son illər özünü göstərən inkişafın nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti yanında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanmış "2016-2017-ci illər üzrə Regionların İnvestisiya Reytinqi"nə əsasən, Göyçay rayonu 2016-cı ilə nisbətən 5 pillə irəliləyərək, respublikanın 63 şəhər və rayonu arasında 38-ci yerdən 33-cü yerə yüksəlmişdir.

**Mətanət Hüseynova**


Bioloji Təbabət
Bioloji Təbabət xəstəliyi deyil, xəstəni müalicə edir !
Niyə məhz Bioloji Təbabət ?
Bioloji Təbabət öz müalicə prinsipini xəstə orqanizmin biotənzimləyici imkanlarını səfərbər etməklə, süni-kimyəvi vasitələrdən istifadə etmədən xüsusi üsullar üzərində qurmuşdur.
DİAQNOSTİKA
Qaranlıq sahəli mikroskopiya
Rentgen
USM
Rəngli-doppler
Endoskopiya
EKQ (elektrokardioqrafiya)
Exo-KQ
EEQ (elektroensefaloqrafiya)
Densitometriya
KT (kompyuter tomoqramma)
Elektromioqrafiya
BRT (biorezonans terapiya)
TERAPİYA
Allerqologiya
Dermatologiya
Endokrinologiya
Kardiologiya
Nevrologiya
Qastroenterologiya
Urologiya
Andrologiya
Oftalmologiya
Vertebrologiya
LABOROTORİYA
Klinik analizlər
Biokimyəvi analizlər
Hormonların təyini
İmmunoloji analizlər
Mikrobioloji analizlər
Onkomarkerlərin təyini
PZR müayinələr
Genetik analizlər (AFGEN laboratoriya)
Göyçay: M.Muradov küç., 12 (Nizami küç., Mərkəzi Xəstəxana yolu) Tel: (+994 20) 274 70 80/90 (+994 55/70) 259 70 90
Sumqayıt: H.Əliyev prospekti, 10-cu məh. Kimya-Texnologiya kollecinin qarşısı Tel.: (+994 12) 409 10 27; (+994 18) 655 03 23/53; (+994 50) 340 03 23
Ünvan: Bakı şəhəri, 3-cü mkr., Pişəvari küç., 110 (Cavadxan küç 24), Memar Əcəmi metrosunun yaxınlığında
/bioloji.tababat
www.btk.az
(012)(050) (055)(070) 430 89 89


AQRARKREDİT
SƏHMDAR KREDİT TƏŞKİLATI
«Aqrarkredit» QSC
Bank olmayan Kredit Təşkilatı
Bütün Azərbaycan xalqını
9 noyabr - Dövlət bayrağı günü münasibəti ilə təbrik edir, milli dövlətçiliyimizə inkişaf və tərəqqi, xalqımıza sülh və əmin-amanlıq arzulayırıq!


AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI
Xalqımızı 9 noyabr - Azərbaycan Respublikasının Dövlət bayrağı günü münasibəti ilə ürəkdən təbrik edirik!


Azərbaycan Dövlət İqtisad Universiteti
9 noyabr - Azərbaycan Respublikasının Dövlət bayrağı günü münasibəti ilə xalqımızı ürəkdən təbrik edir!

*"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur."*

*Heydər ƏLİYEV*

# Vida sözü





# Halal zəhməti ilə ucalan insan



Xalq arasında belə bir deyim var: "Adam var evdən gedir, adam var eldən gedir". Eldən gedən itki daha ağır olur. Gəlimli-gedimli dünyada belə ölümə hamı acıyır, kədərlənir, üz vermiş itkini özününkü bilir. Etiraf edək ki, belə ölümün özü də hər kəsə qismət olmur. Belə ölüm şərəfli və mənalı ömrün sonu olsa da, bu cür insanlara qalib gələ bilmir. Əksinə, aylar, illər keçir, bu insanlar həmişə yad edilir, ruhlarına dualar oxunur, qəlblərdə yaşayırlar.

Ömər Ağayev də belə insanlardan idi…

Ömər Ağacahangir oğlu Ağayev 1928-ci ildə indiki Qobustan rayonunun Təklə kəndində sadə bir ziyalı ailəsində dünyaya göz açıb. Atası Ağacahangir Cahangir oğlu ilahiyyata bağlı bir insan idi. 1930-cu illərdə həyata keçirilən kolxozlaşma zamanı hesabdar işləyərək, halal zəhmətilə ailəsini dolandırırdı. Anası Çimnaz xanım evdar qadın idi. Səkkiz övlad dünyaya gətirib tərbiyə etmişdi.

Ailənin ilk oğul övladı Ömər kənddə yeddiillik məktəbi bitirmiş, İkinci Dünya müharibəsi başlayanda təhsilini yarımçıq qoyaraq kolxozda çalışmış və ailə qayğılarını çəkməyə məcbur olmuşdu. Müharibədən sonra Şamaxıdakı Sabir adına Pedaqoji Texnikumu bitirmiş, bir neçə il doğma kəndində müəllimlik etmişdir.

1950-52-ci illərdə hərbi xidməti başa vuran Ömər öz taleyini Bakı Elektrik Maşınqayırma Zavodu ilə bağlayır. Əmək fəaliyyətinə 5-ci dərəcəli çilingər kimi başlayan Ömər Ağayev indiki Nəsrulla Nəsrullayev adına zavodda sex ustasına qədər yüksəlmişdi. Əməklə ucalan və şərəflənən usta yeddinci beşillik planı vaxtından əvvəl yerinə yetirdiyinə görə "Lenin" ordeni, səkkizinci beşillik planı yerinə yetirdiyinə görə "Oktyabr inqilabı" ordeni ilə təltif olunmuşdur.

1961-ci ildə Sov.İKP-nin XXII qurultayına nümayəndə seçilir. O, Sov.İKP-nin XXV və XXVI qurultaylarının da nümayəndəsi olmuşdur. Ömər Ağayev Azərbaycan KP-nin XXVIII, XXIX və XXX qurultaylarının nümayəndəsi olmuş və MK-nın üzvü seçilmişdi. 41, 42, 43 və 44-cü Bakı şəhər partiya konfranslarına nümayəndə seçilmiş, uzun illər Bakı Şəhər Sovetinin deputatı olmuşdu. 1974-cü ilin yanvar ayının 3-də Sovet İttifaqının ən yüksək əmək təltifinə - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü. Fəxri ad sahibinə təkcə şöhrət gətirmir, həm də məsuliyyət, tələbkarlıq, ona edilən etimada cavabdır. Bu mükafat, bu ad onun əmək fəaliyyətinin məntiqi nəticəsi idi.

Respublikamız müstəqillik qazandıqdan sonra da Ömər Ağayev ictimai fəaliyyətini dayandırmamışdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 2002-ci il tarixli Fərmanı ilə ona Prezident təqaüdü verilmişdi. Ömər Ağayev həmişə öz prinsipiallığı və diqqətcilliyi ilə seçilirdi. O, Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev və dünyanın bir sıra ölkələrinin başçıları, o cümlədən Kuba xalqının böyük oğlu Fidel Kastro ilə şəxsən görüşmüşdü. Bu elə vaxtlar idi ki, hər adam dövlət başçılarına yaxınlaşa bilmirdi.

Ömər müəllim 1977-ci ildə Azərbaycan SSR Ali Məhkəməsində və 15 il SSRİ Ali Məhkəməsində Xalq iclasçısı olmuşdur. 1990-2002-ci illər ərzində Azərbaycan Ali Məhkəməsində Xalq içlasçısı olan bu insan həmişə öz prinsipiallığı ilə seçilmişdir. 2002-ci ilin iyun ayından Prezident təqaüdçüsü, Yeni Azərbaycan Partiyasının üzvü, Respublika Veteranlar Şurasının üzvü olmuşdur. Ömər Ağayev təbiətcə sadə, mehriban, istiqanlı, qaynayıb-qarışan, necə deyərlər, uşaqla uşaq, böyüklə böyük, təkəbbürdən uzaq bir insan idi.

Ömər Ağayev, eyni zamanda, xoşbəxt bir nəslin dəyərli ağsaqqalı idi...

Onun bir neçə il əvvəl mətbuatda dərc edilən xatirələrini oxuyuruq. Əmək qəhrəmanı ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini belə bölüşürdü:

"...Zavodumuzun fəhlələri üçün yaşayış evi tikilirdi. 70-ə qədər fəhlə ailəsi bu binadan mənzil gözləyirdi. O vaxtlar Bakı Şəhər İcraiyyə Komitəsi bir qayda yaratmışdı ki, tikilən evlərin azı 15 faizi onların balansında saxlanılsın. Respublika sarayında keçirilən görüşdə ulu öndər Heydər Əliyev də iştirak edirdi. Çıxışımda dedim ki, biz siyahıdan kimlərinsə adını çıxarsaq, ən azı 10-15 fəhlə ailəsi evsiz qalacaq. Onda Heydər Əliyev məsələyə dərhal münasibət bildirdi: "Növbədə kimlərin adı varsa, evləri də onlara verin. Heç kəsin haqqına, hüququna toxunmayın. Zavodumuzda bunu, az qala, bayram kimi qarşıladılar. Axı, onlarca ailə mənzilə sahib olmuşdu".

Və ya: "Keçirdiyim görüşlər, unudulmaz xatirələr bir yana, amma ulu öndərlə - Heydər Əliyevlə görüşlərimi, səmimi söhbətlərimi heç vaxt unuda bilmərəm. Bu gün yaşadığım evi 1980-ci ildə Heydər Əliyevin köməyi ilə almışam. 2003-cü ildə 75 yaşım tamam olanda Heydər Əliyev evimizə zəng vurub məni həm yubiley, həm də yeni il münasibətilə təbrik etdi. Mən yanvar ayının 1-də doğulmuşam. Elə bilirəm ki, rəhbərin bundan böyük diqqəti, qayğısı ola bilməz. Qazandığım bütün uğurların əsl səbəbkarı Heydər Əliyev olub. Ulu öndər zəhmət adamına, halallıqla ucalan insanlara böyük dəyər verirdi. Ulu öndərlə sonralar da dəfələrlə görüşmüşəm. Hər dəfə eyni səmimiyyət, xoş rəftar görmüşəm...".

Prezident İlham Əliyevlə son görüşünü isə o, belə xatırlayırdı: "Ağsaqqallarla görüşlərinin birində cənab Prezident mənə müraciətlə: - Hə, necəsən?, - deyə hal-əhval tutdu. Dedim ki, biz ulu öndərin tövsiyələri ilə çalışmışıq, uğur qazanmışıq. Ona görə də estafeti sona qədər qorumalıyıq".

El ağsaqqalı qürur hissilə deyirdi: "... Toy-düyündən başım açılmır. Nəvələrim, nəticələrim bir yana, o qədər köməksiz, imkansız adamlara dayaq olmuşam ki... Neçə-neçə cavanın xeyir işinə ağsaqqallıq etmişəm. Bu gün onların övladları mənə "Ömər baba" deyir. Elə bilirəm ki, dünyada bundan böyük xoşbəxtlik ola bilməz..."

Bəli, Ömər Ağayev xeyirxah işlərə ağsaqqallıq etməkdən heç vaxt yorulmayıb.

O, adamların haqqını, hüququnu qorumaq üçün ən mötəbər qapıları döyüb. Azərbaycan Ali Məhkəməsinin xalq iclasçısı kimi ədalətli mövqeyi, haqq səsi ilə seçilib. Köməyə, yardıma ehtiyacı olanlara dayaq olub.

Xalqın, elin, obanın sevgisini, etimadını qazanmağın bir yolu var. O yol halallıqdan, zəhmətdən keçir. Ömər Ağayev də o yolu seçmişdi. Ona görə də bu gün xatırlanır, anılır.

Şərəfli və xoşbəxt bir ömür yaşayan Ömər Ağayev onu tanıyan insanların qəlblərində öz heykəlini ucalda bildi. Təvazökarlığı ilə hər kəsə nümunə olan bu insana uca Allahdan rəhmət diləyirik. Qəbri nurla dolsun!

**"İQTİSADİYYAT"**

# AMEA-nın müxbir üzvü: "Dayanıqlı inkişafda sosial və insan kapitalının qiymətləndirilməsi modelləri"



UNEC-də "Elm aylığı" çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvləri ilə görüşlər davam edir.

Noyabrın 2-də UNEC-in professor-müəllim heyəti, doktorant, gənc tədqiqatçı və magistrləri professor Qorxmaz İmanovla görüşüb.

AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Qorxmaz İmanov "Dayanıqlı inkişafda sosial və insan kapitalının qiymətləndirilməsi modelləri" mövzusunda məruzə ilə çıxış edib. Professor qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyəsinin üsullarından istifadə etməklə sosial və insan kapitalının Azərbaycan meyarları əsasında qiymətləndirilməsi üsullarından danışıb. Dayanıqlı inkişafın əsas istiqamətlərinin iqtisadi, sosial və ekoloji dayanıqlığın təmin edilməsi olduğunu vurğulayan Q.İmanov onun mühüm meyarlarını sosial və insan kapitalının təşkil etdiyini diqqətə çatdırıb.

Qeyri-səlis iqtisadiyyatın (Fazzy iqtisadiyyatı) əsaslarından danışan alim bildirib ki, bu, iqtisadi riyazi üsulların yeni istiqamətidir və əsası dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə tərəfindən qoyulub. Alim insan və sosial kapital modellərindən, milli dayanıqlı inkişaf meyillərindən danışıb, sosial-iqtisadi təhlükəsizlik modelinin dünya üzrə göstəricilərini açıqlayaraq, dünya və Azərbaycan üzrə bu göstəriciləri təhlil edib.

Məruzənin sonunda qeyri-səlis iqtisadiyyat elmini gələcəyin elmi adlandıran Q.İmanov gənclərə bu elmə maraq göstərməyi tövsiyə edib.

Görüşdə professor Qorxmaz İmanov UNEC-də keçirilən "Elm aylığı"nda "Dayanıqlı inkişafda sosial və insan kapitalının qiymətləndirilməsi modelləri" mövzusunda məruzə ilə çıxışına görə Fəxri Fərmanla təltif olunub.

# Millət vəkili UNEC-də BTQ layihəsinin dünya üçün əhəmiyyətindən danışıb

Noyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti Yanında Bilik Fondunun təşkilatçılığı ilə UNEC-də mühazirə keçirilib.

Mühazirədə UNEC-in müəllim-tələbə heyətinə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilən təntənəli mərasimdə Prezident İlham Əliyevin çıxışından irəli gələn vəzifələr şərh edilib, layihənin ölkə, region və dünya üçün əhəmiyyətindən bəhs olunub.

Millət vəkili Tahir Mirkişili "Bakı-Tbilisi-Qars - Azərbaycan iqtisadiyyatının yeni lokomotivi kimi" mövzusunda məruzə ilə çıxış edib. BTQ dəmir yolunun siyasi özəyini ümummilli lider Heydər Əliyevin müəyyən etdiyini diqqətə çatdıran millət vəkili, ulu öndərin təşəbbüsü ilə TRASECA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli Saziş"in imzalandığını və Bakı Bəyannaməsinin qəbul edildiyini qeyd edib. O, bildirib ki, 12 ölkənin dövlət və hökumət başçıları tərəfindən imzalanan saziş Bakı-Tbilisi-Qars layihəsinin siyasi əsasını təşkil edir. 2007-ci ildə isə Prezident İlham Əliyevin nüfuzu, siyasi iradəsi və Azərbaycan dövlətinin iqtisadi dəstəyi ilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşdırılması üzrə Azərbaycan-Türkiyə-Gürcüstan arasında saziş imzalanıb.

BTQ dəmir yolunun perspektivlərindən danışan millət vəkili layihənin Azərbaycan üçün iqtisadi tərəflərini şərh edib. Bunun Avropa, Qafqaz və Asiya koridorunun mühüm hissəsi olduğunu vurğulayaraq, Azərbaycan, o cümlədən region ölkələri üçün iqtisadi əhəmiyyətindən danışıb. Millət vəkili, həmçinin qeyd edib ki, BTQ dəmir yolu hər üç ölkədə məşğulluq və kiçik ticarət baxımından böyük canlanma yaradacaq. Yüklərin marşrutlar boyunca emal edilməsi, ixrac və xidmət üçün yeni sahələrin yaranması, ölkə ixracatçılarının bu dəmir yolu vasitəsilə Avropa və Asiya bazarlarına çıxış əldə etməsi insanların rifahının daha da artmasına gətirib çıxaracaq. Bu da ölkənin ixrac siyasətinin güclənməsinə böyük təkan verəcək.



# Azərbaycan İqtisadçılar İttifaqı Azərbaycan Dövlət Pedaqoji Kollecində tədbir keçirmişdir

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının qrantı hesabına Azərbaycan İqtisadçılar İttifaqı aktual mövzuda layihə icra edir. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "İnsan kapitalının inkişaf etdirilməsi" strateji hədəfinin təşviqi tədbirləri" adlanan bu lahiyənin icrası uğurla davam edir. Layihə çərçivəsində 20.10.2017-ci il tarixdə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində tələbə və pedaqoji kollektivin nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilmişdir. Tədbirdə layihə eksperti - ADPU-nun dosenti İlham Əhmədov məruzə ilə çıxış etmişdir.




Məruzəçi çıxışını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilə dair bu sözləri ilə başladı: "Uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyalara sahib çıxmalıdır. …İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olunmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik."

Məruzəçi qeyd etdi ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə insan kapitalının inkişaf etdirilməsi məsələsi bu baxımdan təsadüfi olmayıb, dövlətin uzunmüddətli strateji məqsədlərindəndir. Daha sonra insan kapitalı termininin izahını verən məruzəçi qeyd etdi ki, insan kapitalı insanın cəmiyyətdə özünü tam realizə etmək və cəmiyyətin imkanlarından tam istifadə etmək üçün biliyinin, bacarığının, əlaqələrinin, peşəkarlığının cəmidir. Bu intellekt, sağlamlıq, bilik, keyfiyyətli əmək və keyfiyyətli həyat şəraitidir. İlk dəfə termin Teodor Şuls tərəfindən işlədilib, sonradan davamçısı Heri Bekker tərəfindən inkişaf etdirilib. İsbat edilib ki, insan fəaliyyətinə effektli iqtisadi baxış çox vacibdir. İlk dövrdə insan kapitalı dedikdə, insana sərf edilən investisiya başa düşülürdü. Sonradan anlayış genişləndirildi, bura insanın istehlak xərcləri - ailəsinə çəkilən xərc, təhsil, səhiyyə xərcləri, mədəni tələbləri aid edilməyə başlandı. Bu sahəyə dövlətin də xərcləri aid edilir. İnsan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynayır. Buna nail olmaq üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur. Bunu əsas tutaraq, Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və biliyin iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcəkdir. Bu, iki səviyyədə təmin ediləcəkdir: 1) insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi; 2) əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması.

Məruzəçi qeyd etmişdir ki, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində əsas strateji hədəflərdən olan insan kapitalının inkişaf etdirilməsi məsələləri bu gün bütün ölkələr üçün aktualdır.

Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi mərhələsində insan kapitalı amili xüsusi ilə mühüm rola malikdir. İnsan kapitalının inkişafı isə təhsildən, onun keyfiyyətinin təmin edilməsindən daha çox asılıdır. Bu səbəbdən 2017-ci il ölkəmizdə "Təhsildə keyfiyyət ili" kimi qeyd edilir.

Milli strategiyada insan kapitalının inkişafı strateji hədəf kimi iki prioritetdən ibarətdir: prioritet 1. Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi; prioritet 2. Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması.

Məruzənin sonunda tədbir iştirakçıları müzakirə edilən məsələ ilə əlaqədar öz fikir və təkliflərini bildirmiş, belə maraqlı mövzunun layihə çərçivəsində həyata keçirildiyi üçün təşkilatçılara - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına və Azərbaycan Respublikası İqtisadçılar İttifaqına minnətdarlıqlarını bildirmiş, maraqlı məruzə üçün təhsil eksperti İham Əhmədova təşəkkür etmişlər.




# Çay İstehsalçıları və İxracatçıları Assosiasiyası yaradılıb

Dövlət başçısının "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 12.09.2017-ci il tarixli Sərəncamında bu sahənin inkişafı ilə bağlı vəzifələr müəyyənləşdirilib, çayçılıq sahəsinin inkişafının davamlı olaraq dəstəklənməsinin təmin edilməsi, fermerlər, tədarükçülər, emalçılar və ixracatçıların dövlət orqanları ilə qarşılıqlı əlaqələrinin daha səmərəli təşkil edilməsi üçün Çay İstehsalçıları və İxracatçıları Assosiasiyasının yaradılması üçün müvafiq tədbirlərin görülməsi tapşırılıb. Bakı Biznes Mərkəzində İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə keçirilən görüşdə Çay İstehsalçıları və İxracatçıları Assosiasiyasının təsis edilməsi qərara alınıb. "Astaraçay" şirkətinin rəhbəri Tələt Məmmədov Assosiasiyanın İdarə Heyətinin sədri seçilib.

Çay İstehsalçıları və İxracatçıları Assosiasiyasının yaradılması sahibkarlığın inkişafı, eləcə də çay istehsalı və ixracının artırılması, ölkəmizin ixrac imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətli olacaqdır.

# Barama FinTech Hackathon müsabiqəsinin 3 qalibi




Azercell Telekom və PAŞA Bankın dəstəyi, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin və ADA Universitetinin təşkilatçılığı ilə gənc proqramçılar üçün təlim və yarış xarakterli Barama FinTech Hackathon 2017 Mobile App layihəsi böyük həyəcanla başa çatıb. Xatırladaq ki, artıq ölkəmizdə dördüncü dəfə təşkil olunan Barama FinTech Hackathon 2017 Mobile App layihəsi mobil developerlərin 36 saat ərzində yatmadan fasiləsiz yeni mobil tətbiqetmə hazırlamasını özündə ehtiva edən yarışmadır. Beləliklə, 50-dən artıq gənc proqramçının və 16 komandanın qatıldığı yarışmanın 3 qalib komandası bəlli olub:

1-ci yerin sahibi – "Crocusoft" komandası "Coupay" layihəsi ilə 1500 azn dəyərində hədiyyə qazanıb. Layihə alış-veriş zamanı yığılan bonus məbləğlərini mobil telefon vasitəsilə istifadə etməyə imkan verir.

2-ci yerin sahibi – "Conexus" komandası "Nova wallet" layihəsi ilə 750 azn dəyərində hədiyyə qazanıb. Bu layihə bitcoin və valyutaları dəstəkləyən elektron pul qabıdır.

3-cü yerin sahibi - "Meraki" komandası "Handy App" layihəsi ilə 450 azn dəyərində hədiyyə qazanıb. Həmin layihə isə qrup şəklində insanlar arasında kartdan-karta pul köçürülməsi əməliyyatlarını həyata keçirmək funksiyasını özündə cəmləmiş bir proqramdan ibarətdir.

# "AtaTravel" MMC turizm sahəsində PR-ın təşkilinə dair seminar keçirəcək

AtaTravel

14 noyabr 2017-ci il tarixində "Excelsior Hotel& Spa Baku" otelinin "Dəhnə" zalında "AtaTravel" MMC-nin dəstəyi ilə turizm ixtisası üzrə təhsil alan tələbələr üçün turizmdə PR-ın təşkili və əhəmiyyəti mövzusunda seminar keçiriləcək. Təlimçilər - "Alibayov Consulting" şirkətinin rəhbəri, Avropa İctimaiyyətlə Əlaqələr İnstitutunun eksperti Vəli Əlibəyov və "AtaHolding"-in Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova tərəfindən iştirakçılara turizm sahəsində PR fəaliyyətinin təşkili, əhəmiyyəti, turizmin müxtəlif məsələləri ilə bağlı ictimai rəyin düzgün formalaşdırılması üsulları, turoperatorlarla müştərilər arasında xeyirxah münasibətlərin qurulması yolları öyrədiləcək, həmçinin bu sahədə yeni kommunikasiya texnologiyalarından istifadə vərdişləri aşılanacaq. Təlim zamanı, həmçinin Azərbaycan üçün yeni olan Qeobrendinq barədə də məlumat veriləcək. Təlimin yekununda iştirakçılara sertifikatlar təqdim olunacaq.




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimova əzizi

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimova əzizi

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**